# Beynəlxalq Əlillər Günü

## Lerik

Lerik Rayon İcra Hakimiyyətində əlillərlə görüş keçirilmişdir. Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov tədbir iştirakçılarını təbrik edərək BMT Baş Məclisinin 1992-ci il 14 oktyabr tarixli qərarı ilə hər il dekabr ayının 3-nün Beynəlxalq Əlillər Günü kimi qeyd olunduğunu, ölkəmizin "Əlillərin hüquqları haqqında" Konvensiyaya qoşulduğunu, Azərbaycan Prezidenti cənab İlham Əliyevin əlillərə, şəhid ailələrinə daim qayğı göstərdiyini bildirdi.



Lerikdə də əlillərin sosial problemlərinin həlli rayon rəhbərliyinin diqqət mərkəzindədir. Son illər bu sahədə xeyli iş görülüb. Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 16 mənzilli iki yaşayış binası, fərdi evlər inşa olunub, onlara pulsuz minik avtomobilləri verilib.

Rayon İcra hakimiyyətinin başçısı Böyük Vətən, Qarabağ müharibələri əlilləri, digər kateqoriyadan olan əlillərlə mütəmadi görüşlər keçirilir, onların problemlərinin həllinə lazımi köməklik göstərilir.

İcra başçısı Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyilə işğal altında olan torpaqlarımızın tezliklə düşməndən azad ediləcəyini, müharibə əlillərinin hər an döyüşə hazır olduqlarını bildirdi.

Qarabağ müharibəsi əlillərindən Bəhlul Rəhimov, Arzuman Nəhmətov, Şahin Əhmədov, Zeynal Aslanov, Cəlal Məmiyev və başqaları çıxış edərək onlara dövlətimiz tərəfindən davamlı şəkildə qayğı göstərildiyini, bir sıra çətinliklərinin həll edildiyini vurğulayaraq dövlətimizin başçısına dərin minnətdarlıqlarını bildirdilər. Çıxışlarda əlillərin sosial problemlərilə bağlı təkliflər səsləndi. Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri ictimai birliyinin Lerik rayon şöbəsinin sədri Veysəl Məlikov icra başçısı tərəfindən əlillərlə görüşlərin artıq ənənəyə çevrildiyini, hər il Beynəlxalq Əlillər Gününün rayonda ehtiramla qeyd edildiyini razılıqla söylədi.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov görüşü yekunlaşdıraraq irəli sürülən təkliflərin həlli üçün müvafiq tədbirlərin görüləcəyini, əlillərə bundan sonra da lazımi diqqət və qayğı göstəriləcəyini bildirdi.

Tədbir çay süfrəsi ətrafında davam etdirildi.

## Masallı

Masallı şəhərinin Heydər Əliyev Mərkəzində Beynəlxalq Əlillər Gününə həsr olunmuş tədbir keçirildi. Masallı Rayon İcra Hakimiyyətinin rəsmiləri, rayon əmək və əhalinin sosial müdafiəsi mərkəzinin əməkdaşları, idarə, müəssisə və təşkilatların nümayəndələri və əlillər tədbirdə iştirak edirdilər.

Masallı Rayon İcra Hakimiyyəti başçısının müavini - ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Aybəniz Qafarova 1993-cü ilin iyun ayında ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əlillərin sosial müdafiəsinə dövlət qayğısının artırıldığını, bu gün həmin qayğının Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, əlillərin ehtiyaclarının və problemlərinin həllinə xüsusi diqqət göstərildiyini bildirdi. Masallı rayonunda da onların sosial qayğılarına, sağlamlıqlarının



qorunmasına, cəmiyyətə tam qovuşmasına daim dəstək verildiyini söylədi.

Qeyd etdi ki, Masallıda Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 76 mənzilli üç yaşayış binası, 5 fərdi ev tikilərək istifadəyə verilib, 2017-ci ildə daha 2 nəfər üçün təzə mənzillər inşa ediləcəkdir. Ayrı-ayrı yaşayış məntəqələrində 6 əlil üçün fərdi yaşayış evlərinin tikintisi tamamlanmaq üzrədir. Rayonda 70 nəfər Qarabağ əlili mənzil növbəsindədir. Əlillərdən 63 nəfər pulsuz avtomobillə təmin edilib.

ƏƏSMN-nin yanında Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsinin müdiri Arzuman Hüseynov, əlil qadınlar cəmiyyəti Masallı rayon şöbəsinin sədri Əminə Abıyeva, Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri ictimai birliyinin rayon şöbəsinin sədri Nahid Rəhimov və başqaları bu kateqoriyadan olan insanların rifah halının, sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən ardıcıl tədbirlərdən danışdılar.

Əlillərdən İlahə Əlibəyli, Sücayət Cəbiyev, Səkinə Bağırova, Nurlan Quliyev, Kamilə Xəlilova və başqaları göstərilən yüksək diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər.

Tədbirdə rayonun bədii özfəaliyyət kollektivləri konsert proqramı ilə çıxış etdilər.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

## Qazax

Beynəlxalq Əlillər Günü münasibətilə keçirilən tədbiri Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov açaraq bildirmişdir ki, Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə dünya miqyasında keçirilən 3 dekabr - Beynəlxalq Əlillər Günü ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə 1994-cü ildən etibarən



Azərbaycanda da geniş şəkildə qeyd olunur.

Ümummilli lider Heydər Əliyevin "Biz əlillər üçün, onların yaşaması üçün, əmək fəaliyyətinə cəlb olunması, öz daxili imkanlarından, istedadlarından istifadə etmələri üçün daha da geniş şərait yaradacağıq" fikri dövlətimizin sosial siyasətinin mühüm prioritetlərindən biri kimi müəyyən olunub.

Əlillərin, şəhid ailələrinin və müharibə veteranlarının sosial müdafiəsi ölkə Prezidenti cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlət başçısının əhalinin sosial problemlərinin həllinə xüsusi qayğısı əlillərin həyat şəraitinin yaxşılaşmasına, onların ictimai hüquqlarının bərpasına şərait yaradıb. Əlilliyi olan şəxslərin maddi təminatının gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir. Bu sahədə qanunvericilik təkmilləşdirilib. Dövlət əlil vətəndaşların çoxsaylı sosial proqramlara, o cümlədən sağlamlıq, reabilitasiya, pulsuz istirahət, texniki bərpa və nəqliyyat vasitələri ilə təminat proqramlarına cəlb olunmasını həyata keçirir. Paytaxtda və bölgələrdə yeni reabilitasiya mərkəzləri istifadəyə verilib. Əlillərin ölkədə, eləcə də xaricdə müalicəsi də xüsusi diqqətdə saxlanılır.

Dövlət başçısının tapşırığına əsasən, əlillərin evlə təmin olunması istiqamətində də böyük işlər görülüb və görülməkdədir. Bu insanlar üçün hər il orta hesabla 700-dən çox mənzil tikilir. Əlillərin minik avtomobili ilə təminatı proqramı da həyata keçirilir. Minik avtomobili ilə təmin olunan əlillərin sayı da ildən-ilə artır.

Ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq Fərman və sərəncamlarına əsasən, əlillərə ödənilən pensiya və müavinətlərin məbləği də hər il artırılır. Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının statistikasına əsasən, Azərbaycan hazırda əmək pensiyasının baza hissəsinin məbləğinə görə MDB ölkələri arasında ilk yerlərdən birini tutur. Bütün bunlar isə ölkə əhalisinin, xüsusilə qayğıya daha çox ehtiyacı olan insanların dövlətin diqqət və qayğısı ilə əhatə olunduğunu göstərir.

3 dekabr Beynəlxalq Əlillər Gününün qeyd olunması artıq ölkəmizin bütün rayonlarında adət halını almışdır. Eləcə də hər il rayonda əlillər üçün tədbirlər keçirilir. Qazax rayonunda 291 nəfər Qarabağ əlili, 50 nəfər hərbi xidmət vəzifəsini yerinə yetirərkən əlil olan şəxs, 26 nəfər Çernobıl əlili, 1 nəfər 20 Yanvar əlili, 847 nəfər uşaqlıqdan əlil olan şəxs yaşayır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Qarabağ əlilləri və şəhid ailələri üçün Qazaxda 2016-cı il ərzində 8 mənzil tikilib istifadəyə verilmiş, bu il 8 mənzilin tikilməsinə başlanılmışdır. Nazirlik tərəfindən əhalinin sosial müdafiəsinin möhkəmləndirilməsi üçün yeni pilot layihələri üzərində işlənilir və bu layihələr barədə mütəmadi olaraq məlumatlar veriləcəkdir.

2014-2016-cı illərdə I, II və III qrup Qarabağ əlillərindən 12 nəfərinə avtomobil verilmişdir. Növbədə olan 26 nəfərə isə qarşıdakı illər ərzində avtomobilin verilməsi nəzərdə tutulub. Eyni zamanda sağlamlıq imkanları məhdud şəxslərə 2014-cü ildə 90 nəfər əlilə 30 manat, 2015-ci ildə 90 nəfər əlilə 20 manat və 2016-cı ildə 36 nəfər əlilə 30 manat maddi yardım göstərilmişdir.

Çıxışının sonunda Rəcəb Babaşov bir daha əlilləri 3 dekabr Beynəlxalq Əlillər Günü münasibətilə səmimi qəlbdən təbrik etmiş və bildirmişdir ki, əlillərimiz ölkə və rayon rəhbərliyi tərəfindən daim diqqət mərkəzindədir. Bu diqqət və qayğı daim olacaqdır.

Bayram tədbiri əyləncəli musiqi proqramları ilə nahar süfrəsi ətrafında davam etdirilmişdir. Əlil qadınlara bayramla əlaqədar gül dəstələri təqdim olunmuşdur.

**Vəli VƏLİYEV,**
**"Respublika".**